# Milli-dini tolerantlıq şəraitindən sui-istifadə və dini mərkəzlərin xeyrinə casusluq...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi

**İranın Azərbaycana qarşı qərəzli siyasəti, Tehran rejiminin ölkəmizdə qarışıqlıq yaratmaq üçün müxtəlif vasitələrə əl atmaq cəhdi, bu məqsədlə casus şəbəkəsi yaratması heç kimə sirr deyil. Elə vaxtaşırı ifşa edilən İran casus şəbəkəsi də bunun təsdiqidir.**



Qeyd edək ki, ötən ilin noyabrında Dövlət Təhlükəsizliyi Xidməti (DTX) İrana bağlı böyük bir casus şəbəkəsini ifşa etmişdi. İran İslam Respublikası xüsusi xidmət orqanları nümayəndələrinin Azərbaycana qarşı həyata keçirdiyi kəşfiyyat-pozuculuq fəaliyyətinin qarşısının alınması, yaradılmış casus şəbəkəsinin ifşa olunması istiqamətində DTX tərəfindən kompleks əməliyyat-istintaq tədbirləri öz mühüm nəticəsini vermişdi. Həyata keçirilən tədbirlər nəticəsində müəyyən edilmişdi ki, Xəzər Dəniz Neft Donanmasında gəmi kapitanı vəzifəsində işləyən Əsgərov Zahir Fəxrəddin oğlu, Rəsulov Elnur Akif oğlu, Ağazadə Bəxtiyar Rafiq oğlu və digərlərindən ibarət böyük bir şəbəkə ifşa olunmuşdu. Araşdırmalar zamanı onların İran xüsusi xidmət orqanının tapşırığı əsasında fəaliyyət göstərdiyi də üzə çıxmışdı. Amma bu hal da İranın Azərbaycana qarşı məkrli fəaliyyətinin sona çatmasi ilə nəticələnmədi. İrana bağlı yeni casus şəbəkəsinin ifşası da bunun göstəricisidir. Qeyd edək ki, yanvarın son günündə Bakıda İranın casus şəbəkəsinə qarşı xüsusi əməliyyat keçirilib. Bu dəfə Daxili İşlər Nazirliyi tərəfindən əməliyyat keçirilən məkanlar arasında "SalamNews" informasiya agentliyi və "İnter Az" da olub. Daxili İşlər Nazirliyinin əməkdaşları tərəfindən həyata keçirilən xüsusi əməliyyat tədbirləri nəticəsində Bakıda və respublikanın digər bölgələrində 7 nəfər - A.T.Kərimov, E.A.Rəhimov, İ.Ə.Ələkbərov, M.N.Cəfərov, H.H.Cabbarlı, F.S.Əbdülov və A.Ə.Cümşüdov şübhəli şəxs qismində tutulub. Xatırladaq ki, "İnterAz" telekanalı 2002-ci ildə yaradılıb və 2007-ci ildə Rusiya Federal Vergi Xidmətinin Rayonlararası müfəttişliyində qeydiyyata alınıb.

### İslam dövləti olmasına baxmayaraq, faşist xislətli erməni terrorçularını dəstəkləməsi…

Azərbaycan qonşulara həmişə mehriban, dost münasibət bəsləyib. Ötən əsrdə ikinci dəfə müstəqilliyimizi bərpa etdikdən sonra İranın qısqanc siyasətinə baxmayaraq, Azərbaycan Arazın o tayındakı hökumətlə qarşılıqlı hörmətə əsaslanan əməkdaşlıq əlaqələri qurmağa çalışıb. Hətta Birinci Qarabağ müharibəsində destruktiv fəaliyyətinə baxmayaraq, Azərbaycan sonrakı illərdə də İranla qonşuluq münasibətlərinin inkişafına önəm verib, rəsmi Tehranı regional aktor kimi qəbul edib. Lakin İkinci Qarabağ müharibəsində qələbə qazanmağımız İrandakı teokratik rejimin ciddi narahatlığına səbəb olub və bunu artıq açıq şəkildə nümayiş etdirir. Elə İran casus şəbəkələri də bunun əyani təsdiqlərindən biridir. Ümumiyyətlə, İranın anti-Azərbaycan mövqeyi artıq dayanıqlı xarakter almağa başlayıb və bu mövqenin daha da genişləndirilməsi üçün müxtəlif adımlar atılıb. Bu müstəvidə İran Azərbaycana qarşı ermənipərəst siyasətini daha intensiv hala gətirib. Ermənistanın sərhədlərini öz qırmızı xətti elan edən İran bu ölkəni indi də yeni silahlarla təchiz etmək istəyini davam etdirir. İslam dövləti olmasına baxmayaraq, faşist xislətli erməni terrorçularını dəstəkləməsi İranın dini dəyərlərə hörmətsizliyi kimi qiymətləndirilir. Azərbaycana qarşı atılan addımlar artıq İranın özü üçün bumeranq effekti verir. Onun casus şəbəkələrinin ölkəmizdə ifşası isə İranın daha zəif duruma düşməsini şərtləndirir.

### Şiəlik vitrini altında "xomeynizmi" yaymaq...

İran rejiminin istifadə etdiyi əsas rıçaq şiəlikdir. I Qarabağ müharibəsində "Ermənistana silah, Azərbaycana saqqız" siyasətini həyata keçirən molla rejimi "şiə qardaşlarım" təbliğatı ilə ələ keçirmə planının təməllərini atırdı. İranın Azərbaycana qarşı şiəliyin vitrin təşkil etdiyi siyasəti Yaxın Şərq coğrafiyasında tətbiq etdiyi hibrid metodlarından fərqlənmir:

- Şiəlik vitrini altında "xomeynizmi" yaymaq və Azərbaycanda milli kimliyin dini kimliklə əvəzlənməsinə nail olmaq;
- Dövlət və özəl sektorda casuslar vasitəsilə möhkəmlənmək;
- Livanda yaratıqları "Hizbullah" modeli üzrə silahlı siyasi müxalifət formalaşdırmaq;
- Və yekun hədəf olan "şəriət rejimi"ni qurmaq.

İran rejimi 1990-cı illərdən etibarən bu məqsədlə Azərbaycanda casus şəbəkəsini yaratmağa çalışır. Şəbəkənin formalaşdırılması bir neçə istiqamətdə həyata keçirilib.

- İran kəşfiyyatçıları ilə azərbaycanlı xanımların evləndirilməsi;
- Dini təbliğatla inanclı insanların üzərində "hakim mövqe"yə nail olmaq və təsir agentlərindən ibarət şəbəkə qurmaq;
- İranda (Qum, Məşhəd kimi bölgələrdə) dini təhsil almağı təşviq etmək və tədrisi azərbaycanlıların milli kimliyinin dini kimliyə dəyişdirilməsi yönündə aparmaq;
- Şiələrin müqəddəs hesab etdikləri məkanlara - Məşhəd, Qum, Kərbəla, Nəcəfdəki ziyarətgahlara gedən azərbaycanlıların din, pul, eləcə də şantaj yolu ilə ələ alınması və s.

Molla rejimi hazırda İrana səfər edən bütün azərbaycanlıları potensial casus gözündə görür və bütün vasitələrlə onları ələ almağa çalışır. Son proseslər - İranın diqqəti daxildəki etirazlardan yayındırmaq üçün "xarici düşmən" obrazından yapışması və bu obrazı Azərbaycan üzərində fokuslandırması, "bölgədə sionistlər və terrorçular" var iddiaları və səfirliyimizə qarşı törədilən terror aktından sonra gərginliyin pik həddə çatması fonunda bu ölkəyə gedən azərbaycanlıların iki çətin seçim qarşısında qala biləcəyi riskini də yaradıb: ya İran casusuna çevrilə, ya da "Azərbaycan casusu" olaraq həbs edilə bilərlər. Dindarlarımız Azərbaycanda olan milli-dini tolerantlıq modelindən sui-istifadə edən bu ölkənin məkirli niyyətlərinə uyub, onların casus toruna düşməməlidir.

***Məhəmmədəli QƏRİBLİ***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**